**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIII buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIII выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Arts, XXXXIII edition, Baku, 2023*

# MUSİQİ SƏNƏTİ

**UOT -78**
**DOI 10.52094/152412.43.2023.21**

**Lalə Tahir qızı Cəfərova**
**Üzeyir Hacıbəyli adına Bakı**
**Musiqi Akademiyası**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru,**
**dosent**
**E-mail:laleceferova1977@mail.ru**

## SİMFONİK ORKESTRDƏ FAKTURA ÖZƏLLİKLƏRİ

**Xülasə:** Faktura verilən musiqi materialının elə forma quruluşudur ki, burada o, musiqi obrazlarının yaradıcısı, verilən əsərin bədii məzmununun əksi kimi çıxış edərək, mühüm rol oynayır. Faktura kompleksini bütövlükdə götürəndə, deyə bilərik ki, o, maksimal dərəcədə fərdidir. Fakturanın inkişafı nəinki ahəngli intonasiyalarla dolu olan musiqinin ifadəsində, hətta səs təqlidetmədə də böyük rol oynayır. Nümunə üçün meşə səsləri, dalğaların hərəkəti, zınqırov səslərini göstərmək olar ki, çox vaxt bunlar fon və müşayiətli səslər ilə verilir. Eyni zamanda faktura, musiqi obrazının əsas daşıyıcısı kimi "hərəkətin ümumi forması" deyilən və ya passajlar şəklində köməkçi və aralıq rolunu oynayan forma yaradıcısıdır.

**Açar sözlər:** səs, faktura, orkestr, bəstəkar, simfoniya, forma, melodiya, ritm.

### Faktura nədir?

L.A.Mazelin "Musiqi əsərlərinin quruluşu" dərsliyinə görə faktura dedikdə ona, bütöv bir musiqi əsərində bunların xüsusiyyəti, uyğunluğu və funksiyaları nöqteyi nəzərindən baxılaraq, səslər və ya səslər qrupunun məcmusu nəzərdə tutulur. [1, s.129] Y.N. Tyulinin nəzəriyyəsinə diqqət yetirsək, Mazel və Tyulinin fikirlərinin üst-üstə düşməsinin şahidi olarıq. Belə ki, Tyulinin "Учение о музыкальной фактуре и мелодической фигурации» kitabında fakturanı, musiqi materialının yazılış üsullarının məcmuyu, cəmi hesab edir. Yəni, Tyulinə görə faktura musiqi materialının yazılış formasıdır. [2, s.6]

S.S.Skrebkov nəzəriyyəsinə gorə isə "faktura" musiqi əsərlərində səslər yığımının konkret yazılış formasıdır. [3, s.13] Bir qədər fərqli nəzəriyyə ilə çıxış edək:

E. B. Hazaykinski və B. H. Xolopov fikirlərinin də ümumi olduğunu görürük. Belə ki, Nazaykinskinin kitabında, faktura, səs toxumlarının bədii üç hissəli musiqi konfiqurasiyası yəni komponentlərin vertikal, qorizontal və dərinliyinə görə yığılması kimi qəbul olunur. [4, s.5 ]

Xolopovun "Faktura" braşyurası və "musiqi əsərlərinin təhlili" proqram – kinspektində də eyni ilə üç fakturalı parametri, belə ki, vertikal, qorizontal və dərinlikli yığılmalar da xüsusiylə qeyd edilir. İndi isə ensklopediyaya müraciət edək. "Ensklopedik musiqi lüğət"ində isə faktura-texniki ünsürlərin, yəni melodiya, polifonik səslər, fiqurasiya və s. toplanması ilə yazılan əsərin musiqi vasitəsilə ifadə tərzidir. Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, faktura – verilən əsərin daxili məzmun hissəsi olub, elə musiqi formasına aiddir ki,o, burada musiqi obrazlarının yaradıcısı, verilən əsərin bədii məzmununun əksi kimi çıxış edərək mühüm rol oynayır. Deməli, faktura verilən musiqi materialının forma quruluşudur. Faktura- (faktura-işləmə) latın sözü olub, facio-"edirəm" sözündən yaranıb. Faktura sözünə sinonim kimi "qat" -(polifonik, hamofon, xorly qat),"yazılış"- (orkestr yazılışı), musiqi parçası kimi sözlər işlənə bilir.

Bəs faktura müasir bəstəkarların yaradıcılığında necə təzahür edir?

Faktura kompleksini bütövlükdə götürəndə, deyə bilərik ki, o, maksimal dərəcədə fərdidir. Fakturanın inkişafı nəinki ahəngli intonasiyalarla dolu olan musiqinin ifadfəsində, hətta səs təqlidetmədə də böyük rol oynayır. (Məsələn: meşə səsləri, dalğaların hərəkəti, zınqırov səsləri çox vaxt fon və müşayiətli səslər ilə verilir.)

Tembr və harmonik fonizm kimi, eyni zamanda fakturanın da, hər hansı bir musiqi parçasının səslənməsinə təsiri hər an ola bilər. Hər bir zamanın özünə uyğun olaraq, individual müəllif düşüncəsi, yazıb-yaratma tərzi, bu və ya digər musiqi üslublarının xüsusiyyətləri, fakturaya ciddi təsir edir. Hər hansı bir tematik materialın təkrarı və ya həmən materialın digər keçidi zamanı fakturanın dəyişilməsi, musiqi obrazlarının yeniləşməsinə gətirib çıxarır. Belə hallarda faktura, əsərin məzmununun əsas komponenti kimi qəbul olunur. Bəzi hallarda isə faktura çox sadə şəkildə müəllif tərəfindən göstərilir.

Faktura, musiqi obrazının əsas daşıyıcısı kimi "hərəkətin ümumi forması" deyilən və ya passajlar şəklində köməkçi və aralıq rolunu oynayan forma yaradıcısıdır. Çox vaxt əsəri dinləyərkən deyirlər: "Bunun fakturası yoxdur". Lakin bu o deməkdir ki, həmən əsərin fakturası çox sadədir. Məlum olduğu kimi, bədii musiqi praktikasının inkişaf prosesində kompozisiyada əsas rolu melodiya, harmoniya və ritm oynayır ki, onlar da musiqi fakturasının komponentləridir.

Musiqi formasinin inkişaf prosesində bu komponentlər formayaradan faktorlar kimi çıxış edərək, bütövlüklə öz qarşılıqlı təsiri ilə musiqinin bütün gözəlliyini, zənginliyini yaradır. Bu üç faktordan birini dəyişsək, o zaman musiqi tanınmayacaq dərəcədə başqalaşa bilər. Musiqi əsərinin bədii məzmununda onlar bir-birindən ayrilmazdır. Fakturan komponentlərinin təhlilinə, Arif Məlikovun baletlərinin nümunəsində baxaq: **Melodiya**

Musiqi nitqinin ünsürlərindən birincisi olan melodiya- onu yaradanın, xarici aləmin təəssüratını, yaxud öz əhval-ruhiyyəsini səslərlə əks etdirmək bacarığıdır, yəni səslərlə obrazlı təfəkkürüdür. Heç təsadüfi deyil ki, Şopen və Qlinka demişdir: melodiya musiqinin canıdır.

Melodiya - musiqidə yüksəkliyin dəyişiklik xətti, yəni melodik adlanan xətt məzmununu təcəssüm etdirən mühüm vasitələrdən biridir.Melodi-yanı akkord ardıcıllığının qanunauyğun surətdə qurulmuş ahəngdarlığı təşkil edir.[5, s.13-19]

Məlum olduğu kimi, musiqi əsəri hər şeydən əvvəl, məhz öz melodiyasına görə tanınır və xatırlanır. Melodiya musiqinin əsas mənasını daşıyan və onun ruhunu ifadə edən bir vasitədir.Musiqi ifadəliyinin bir çox mühüm ünsürləri ( kök, vəzn, tembr və s.) məhz melodiyanın tərkibində birləşərək bir vəhdət təşkil edir. Melodiya bədii bir ifadəyə malikdir. Melodiya bir çox hallarda özü ilə yanaşı, başqa səslərlə müşayiət edilir. Lakin buna baxmayaraq o, öz əsas surətini saxlaya bilir və onu müşayiət edən başqa səslər ancaq əsil melodiyaya zinət verən kömək-çi səslər vəzifəsini daşıyır. O, həm ritmləşmiş və sadə melodik xəttdən ibarət olur. Eyni zamanda, sekunda bağlılığı ilə və ya başqa intervallar münasibətilə keçən melodik inkişaf da mövcuddur. Məsələn, Arif Məlikovun "İki qəlbin dastanı" baletində № 76 "Təlxəyin rəqsi", № 14 "Musiqiçilərin saraya aparılması" kimi musiqi nömrələri, ritmləşmiş melodiyaya nümunə ola bilər. "Məhəbbət əfsanəsi" baletində " Sənətkarların rəqsi", "İki qəlbin dastanı" baletində "Modan və onun dostları" musiqi nömrəsində sekunda münasibətilə, "Məhəbbət əfsanəsi" baletində "Qaçanların təqib olunması" nömrəsində bir melodik xəttin unison olaraq keçməsinin, "Qızların rəqsi"ndə interval münasibətlərinin (sekunda, tersiya, kvarta) şahidi oluruq.

Melodiyada bir qayda olaraq, hərəkət istiqamətinin dəyişməsi, yüksələn və enən hərəkətin növbələşməsi baş verir. Bu da adətən, melodiya vasitəsilə ötürülən emosiyanın gərginliyinin qüvvətlənməsinə və zəiflənməsinə yardım göstərir. Bu, melodik xəttin az və ya çox aydın ifadə olunmuş dalğavariliyini təyin edir.

Melodiyanın geniş və sıçrayışlı hərəkəti adətən daha gərgin, melodik xəttin gedişində daha kəskin, qabarıq səslənir və ifadəliliyin daha da fərdiləşmiş anını ifadə edir.

**Harmoniya**

Fakturanın ikinci komponenti olan harmoniya - musiqi obrazının yaradılmasında mühüm rol oynayan vasitədir. Musiqi vəhdətinin əsasını melodiya təşkil edir, lakin harmoniya melodiya ilə möhkəm bağlı olub, onu müşayiət edərək zənginləşdirir. Deməli, harmoniya özü aydın ifadə vasitəsi olmaqla bərabər,eyni zamanda əsas ifadə vasitəsini - melodiyanı gücləndirir.

Majorun tersiyalı quruluşu, səsin öz akustik təbiətinə görə natural oberton səs düzülüşünə aiddir. Böyük üçsəslilər və ya kiçik üçsəslilər harmonik səslənmənin xüsusi zənginliyini göstərir. Eləcə də, dissonans akkordlar üçün əksidilmiş üçsəslilər, septakordlar nonakkordlardan istifadə edilmişdir.

Akkordun əsas tersiyalı quruluşunun müxtəlif variantlarda dəyişilməsi (məsələn: verilən tonların müxtəlif düzülüşü və ikiləşməsi) harmoniyaya səs rəngarəngliyi verir. Məsələn, sıx düzülüşdə qatı səslənməni, geniş düzülüşdə isə səsin şəffaflığini görərik. Səslərin rənglərini ifadə edən akkordların bu ahəngdarlığı fonizmə aid olunur. Ümumiyyətlə, fonizm majorluluq və ya minorluluq, həmçinin akkordların dissonantlığıdır. Məsələn: akkordların uzun müddətli ifasına diqqət cəlb olunur ki, burada fonizim ön plana keçir. Harmonik komponentə aid olan akkordların qarışıq intervallı quruluşunun müxtəlif variantlarda dəyişməsi, göstərilən kompozisiyalarda harmoniyaya səs rəngarəngliyi verir. Sıx düzülüşdə qurulan akkordlar məlum olduğu kimi qatı səslənmə yaradır. Arif Məlikovun "İki qəlbin dastanı" baletində "Komdenin rəqsi" musiqi nömrəsi (№ 18) Komde və Modanın bir-birinə olan sevgi hisslərini ifadə edən çox poetik və incə rəqsdir. Mövzu simlilərin ifasında oktava münasibətilə səslənir. Taxta nəfəs alətlərinin ifasında isə melodik fiqurlaşmış akkord qat, fakturanı təşkil edərək sıx düzülüşdə qatı səslənmə yaradır.Məlumdur ki, major üçsəslisinin eyni adlı minorla əvəz olunması parlaq fonik kontras yaradır. Belə nümunələrlə baletdə tez-tez rastlaşırıq. Belə ki, "Məhəbbət əfsanəsi" baletində, "Gözəlliklə vida səhnəsi", "Şirinin sağalması", "Adajio", "Məhmənəbanunun monoloqu", "Fərhad və Şirinin adajiosu" səhnələri buna nümunə ola bilər. Çox vaxt minordan sonra gələn major özünü təsdiqləyərək sakitliyə doğru aparır. Əks təqdirdə, yəni majordan sonra minor gələrsə,hərəkətin yeni impulsu yaranır. Təsadüfi deyil ki, "Gözəlliklə vida səhnəsi" musiqi nömrəsi Do major tonallığında başlayır, mi minorda bitir. "Şirinin sağalması" musiqi nömrəsi Mi majorda başlayıb,

do minorda bitir. "Fərhad və Şirinin adajiosu" Lya major tonallığında başlayıb, lya minor tonallığında bitir və s.

Fakturanın əsas komponenti olan harmonik inkişafın təhlilinə baxarkən (mis nəfəs alətlərinin ifasında səslənən) akkordları üç tərəfdən qiymətləndirmək olar.

1.Fonizm,akkordların lad əhəmiyyəti (yəni quruluşun tonikalılığı və ya dominantlığı nəzərdə tutulur) .

2.Özündən əvvəlkinə münasibətdə akkordların funksiyası (əgər o, əsərin əvvəlində deyilsə).

3.Akkordun özundən sonrakına münasibətdə funksionallığı(əgər modulyasiya varsa).

**Ritm**

Fakturanın üçüncü komponenti ritm,musiqili hərəkətin təşkiledici faktorudur. Ritm, özünün tempi və ölçüsü ilə birlikdə hərəkətin xarakterini əmələ gətirir.

Həm də unudmaq olmaz ki, musiqi, incəsənətin bir növü kimi,məkan daxilində deyil,zaman daxilində mövcud olur və həmişə fasiləsiz hərəkət edir,özünün bütün elementlərini uzun müddət dəyişdirmədən saxlaya bilir. Səsin ritmik təşkili, vaxtın hesablama sistemini yaradaraq, onların qruplarda birləşməsinə əsaslanır. Bu özlüyündə metr adlanır. O isə melodik və harmonik hərəkətin ritmik şəklini yaradır. Musiqidə olan güclənmə və zəifləmə halları inandırıcı yaxınlaşma, yaxud uzaqlaşma təsiri yaradır. Bununla, emosional yüksəliş, həmçinin emosional enmə əlaqədar ola bilər.

Ritm melodiyanın əsas və ayrılmaz cəhəti olmaqla yanaşı, həm də musiqinin sərbəst elementidir. O, melodiyadan kənar, məsələn zərb alətlərində ifa olunma yolu ilə də mövcud ola bilər. Bu mənada hətta ritm, melodiyaya qarşı da qoyula bilər. Daha xırda ritmik ölçülər, uzun ölçülərdən sonra canlandırıcı, fəal, ehtiraslı, gərgin və həyəcanlı kimi mənimsənilir. Məsələn, "Məhəbbət əfsanəsi" baletində "Qaçanların təqib edilməsi" səhnəsində xırda ritmik hərəkət, gərgin və həyəcanlı, "Qızıl qərsi", "Təlxəyin rəqsi", İki qəlbin dastanı" baletindən "Modan və onun dostları" nömrəsində xırda ritmik ölçülər dinləyiciyə fəal və canlandırıcı təsir bağışlayır. Daha uzun ritmik ölçülər isə xırdalardan sonra sakitləşdirici xüsusiyyət daşıyır. Lakin digər tərəfdən ayrıca götürülən uzun səs,bərabər şəraitdə qısa səsə nisbətən daha çox enerji, qüvvə sərf olunmasını tələb edir. Buradan da uzun səslərin daha tutqunluğu, əhəmiyyətliliyi, qisa səslərin isə daha çox yügüllüyü və az əhəmiyyətli olması hiss olunur. Yüksək səslər yüngül səs kimi, alçaq səslərin isə kütləvi səs kimi mənimsənilməsi, adətən yaıniz kənar

reqistrlərdə, ya da uzaqlaşdırılan reqistrlərin səslərinin bilavasitə müqayisəsində həyata keçir. Hərəkətin artması,həmişə səsin ağırlığının kəskin surətdə azalması ilə müşayiət olunur.

Melodik şiddətlənmə - melodiyanın kulminasiyaya doğru hərəkəti,çox vaxt ritmik hərəkətin canlanması ilə, yəni uzun ölçülərdən daha xırda ölçüyə keçidlə əlaqədar olur. Lakin bununla belə, gərginliyin ən yüksək nöqtəsi - kulminasiya - adətən ən qısa yox,əksinə, daha uzun səs olaraq özlüyündə ən samballı, əhəmiyyətli, yəni şiddətlənmənin səbəbi xüsusiyyətini daşıyır. Məsələn, “Məhəbbət əfsanəsi” baletində “Təntənəli yürüşdə” musiqinin bitməsinə yaxın (yəni 64-cü rəqəndən) artıq hərəkət daha da xırdalanır. “Məhmənəbanunun xəyalları” səhnəsində (210cü rəqəndən başlayaraq) hərəkət daha xırda ölçüyə keçir, lakin səhnənin sonunda (211-ci rəqəmdə) əsas mövzu genişlənib, uzun ölçülü olaraq çox möhtəşəm və əhəmiyyətli səslənir. Umumiyyətlə, rəqslərdə səslərin ritmik qruplaşması,motorlu hərəkətdə, onların qüvvətli hissələrində olan vurğularla qəbul olunur. Buna İki qəlbin dastanı” baletindən “Saray əyanlarının rəqsi”, “Təlxəklərin rəqsi” musiqi nömrələri nümunə ola bilər. “Məhəbbət əfsanəsi” baletindən “Türk qızlarının rəqsi” və “Qızıl rəqsi”ndə tom-tom alətindən istifadə edilərək, musiqi nömrəsinin axırına kimi sınıq ritm saxlanılır.

Musiqili fakturada üç parametri nəzərə çatdırmaq lazımdır. Reqistr yüksəkliyi olan, zaman və dərinliyi bildirən kateqoriyalar:

- Reqistrli fakturada yuxarı, orta və aşağı laylardan istifadə olunur.
- Zamanlı parametr, fakturalı elementlərin koordinasiyasını, zaman daxilindəgöstərir və onların horizontal, vertikal və dioqonal münasibətlərini müəyyən edir.

Dərinlikli parametr, musiqi parçasının fəzada bəşluq keyfiyyətini ifadə edərək müxtəlif dərəcələrə malikdir.Dərinlikli ölçünün diapozonu, fak-turalı elementlərdən tutmuş, müxtəlif səs mənbələrinə əsasən yaradılan real stereoeffektlərə qədər gedib şıxır.

Dioqanal faktura, XX əsr musiqisinin ifadə üsullarının bütöv bir kimpleksi ilə bağlı idi. Belə komplekslərin təşkili – yarımtonlarla doldurulan total xromatizmdir, eyni zamanda bu dodekafon seriyasıdır. Klaster- səslənmələri musiqi parçasının formalaşdırılması, yəni tərti-batı üsulu kimi cresendo, diminuendodan istifadə edərək musiqiyə tamlıq verərək, onu nizama salır.

Nazaykinskiy, fakturanın dərin və çoxplanlı olmasını, səs yüksəklinin nyuansları vasitəsilə xarakterizə edirdi. [ 6, s.10 ]

“Bu torpaqda iki nəfər” baleti, Arif Məlikovun digər baletlərindən, yəni “Məhəbbət əfsanəsi” və İki qəlbin dastanı” baletlərindən özünün poliladlı quruluşuna görə fərqlənir. Burada harmonik, reqistr, instrumental və fakturalı tembrlərdən geniş istifadə olunub. Məlumdur ki, bəstəkar baletlərdə daha mürəkkəb növləri və qarışıq qatlardan da istifadə edir. Bunlardan akkordlu polifonik qat, homofon akkordlu qat, homofon polifonik qat və s.

Bu, yaxınlaşma və uzaqlaşma effektləri ilə, pauzaların yaranması ilə təbəqələşmiş fakturanın relyef və fona qoyulması, boşluğu ifadə edən doldurulmamış fəza təəssüratını yaradan kvinta, oktava, septima, fonizm, dinamik və tembr nizamlanmasının fərqi ilə, bu isə orkestr qruplarının sual-cavabı nəticəsində yaranan əks səda effektləri vasitəsi ilə baş verir. Alətşünaslığın özünəməxsus dialektikası da elə bununla təsdiqlənr. Bir əsərin və ya onun hansısa bir parçasının fakturası dedikdə, onun səslərinin məcmusu nəzərdə tutulur ki, bu səslərə, musiqi əsərlərində onların xüsusiyyəti, uyğunluğu və funksiyaları nöqteyinəzərindən baxılır. Məsələn: hər hansı bir musiqi parçasının fakturası özlüyündə əsas melodik səsi, bas səsinin, harmoniyanın sədalarını saxlayan səsləri, müəyyən dərəcədə harmonik və ya melodik bəzəklər təşkil edən səsləri, melodiyanı ifadə edən səsləri (yəni kontrapunktu) ehtiva edir.

Fakturanın xasiyyətnaməsi cürbəcür planlarda verilə bilər. Bunu, mürəkkəb və sadə faktura, qatı və şəffaf, orkestrin və fortepianonun fakturası, bu və ya digər janrlar üçün tipik olan faktura, əsas səsli və müsayiətli mövcud olmasını güman edən homofonlu (harmonik-homofon) və bütün səslərin bərabər hüquqa malik olmasını güman edən polifonik faktura haqqında demək olar. Dediklərimizlə əlaqədar olaraq və fakturanın müxtəlifliyini nəzərə alaraq ,musiqi formasını monodik, polifonik, akkordlu homofon və qarışıq musiqi qatları kimi adlanan əsas növlərinə bölmək olar. Belə ki, monodik qat- bir səsli deməkdir, unison və ya oktavalı ikiləşmə ilə keçən müşayiətsiz melodik hərəkətdir. Bu, musiqi əsərlərində “solo” kimi də səslənə bilər. Əsərlərdə akkordlu qatlardan tez-tez istifadə olunur. Akkordlu qat- səslərin elə harmonik münasibətilə xarakterizə olunur ki, bu zaman akkordlar səslərin ritmik eyniliyində monolit bütöv kimi meydana çıxır. Bəzi hallarda akkord qatı,akkordların xoral yazılışına görə və səslərin melodik fiqurlaşmasına görə mürəkkəbləşə bilər. (Akkord qatı monoritmik olaraq, gah yuxarı səsi, gah da bası ikiləşdirir).

Homofon qat da digər qatlardan fərqli olaraq iki planlı quruluş əmələ gətirir. Əsasən bununla xalq musiqisində çox zaman qarşılaşırıq. Bu, melodiya və onu müşayiət edən səslə izah olunur.

Qarışıq qatıar isə müxtəlif ola bilər. Məsələn: akkordlu polifonik qat, homofon akkordlu qat, homofon polifonik qat və s. Faktura yazılışının daha mürəkkəb növü olan koloristik qatlardır ki,burada akkordlar üst-üstə oktava münasibətilə təbəqələşir.

Fakturanın növü olan qarışıq funksiyalar, həm nəzəri tipologiyalara, həm də yaradılmış bədiiliyə məxsus olaraq individual xarakter daşıyır. Çox vaxt fiqurasiyalı ikiləşmiş intervallı quruluşlar daha fərqli olur. Belə ki, bu zaman əsas melodik səs oktava ikiləşməsi ilə keçir. Orta səsdə isə ikiləşmə gec baş verir. İki oktava arasında qalan vaxt harmonik fiqurasiyalar vasitəsi ilə doldurulur. Bununla da əsas səs oktava ikiləşməsi ilə və onun harmonik doldurulması ilə çoxsəsli faktura təbəqəsini özündə cəmləşdirir. Ümumiyyətlə, melodiyaların ikiləşməsi, intervallı və akkordlu səslənmələrdə baş verir. İkiləşmə ifadəsi, melodiyanın qalınlaşması kimi də qəbul oluna bilər. Bu akkord paralelliyi, interval münasibətilə də ola bilər.

## Ədəbiyyat siyahısı:

1. Mazel L.A. Musiqi əsərlərinin quruluşu. Bakı 1988. 516 s.
2. Тюлин Ю. ”Учение о музыкальной фактуре и мелодической фигурации" М.,1976.164 с.
3. Скребков С. Статьи и воспоминания.М.,1979. 309 с.
4. Скребкова-Филатова М. «Фактура в музыке » М.,1985. 285 с.
5. Polyanovskiy Q., Routerşteyn M. Musiqini necə dinləmək və başa düşmək olar. Azərnəşr.1966. 37s.
6. Холопова В. Фактура. М.,1979. 87с.

**Лала Таир кызы Джафарова.**

## Особенности фактуры в симфоническом оркестре

**Резюме:** Фактура – это такая структура данного музыкального материала, где она играет важную роль, выступая создателем музыкальных образов, отражающих художественное содержание данного произведения. Рассматривая фактурный комплекс в целом, можно сказать, что он максимально индивидуален. Развитие фактуры играет большую роль не только в выражении полной гармоничных интонаций музыки, но и в подражании голосу. Например, звуки леса, движение волн, звуки колокольчиков, которые часто даются фоновыми и сопутствующими звуками. В то же время фактура как основной носитель музыкального образа

является так называемой «общей формой движения» или творцом формы, играющей в форме пассажей вспомогательную и промежуточную роль.

**Ключевые слова:** звук, фактура, оркестр, композитор, симфония, форма, мелодия, ритм.

**Lala Tair gizi Jafarova**

## Features of texture in a simphony orchestra

**Summary:** The invoice is the form structure of the given musical material, where it plays an important role, acting as the creator of musical images, reflecting the artistic content of the given work. Taking the invoice complex as a whole, we can say that it is maximally individual. The development of the texture plays a big role not only in the expression of music full of harmonious intonations, but also in voice imitation. For example, the sounds of the forest, the movement of waves, the sounds of bells, which are often given with background and accompanying sounds. At the same time, the texture, as the main carrier of the musical image, is the socalled "general form of the movement" or the creator of the form that plays an auxiliary and intermediate role in the form of passages.

**Keywords:** voice, texture, orchestra, composer, symphony, form, melody, rhythm.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12. 12. 2023**